

*"Silahlı Qüvvələrin yaradılması Azərbaycanın dövlət müstəqilliyini və suverenliyini təsdiq edən, onu nümayiş etdirən amillərdən biridir".*

**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 20 iyun 2015-ci il № 47 (1963) Qiymətı 25 qəpik


## Rəsmi xronika

***✓ İyunun 17-də Heydər Əliyev adına İdman Sarayında keçirilən sərbəst güləş üzrə yarışlarda Azərbaycan güləşçisi, Olimpiya Oyunlarının ikiqat bürünc mükafatçısı, dünya və Avropa çempionu Xetaq Qazyumov birinci Avropa Oyunlarının qızıl medalını qazanıb.***

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı, "Bakı-2015" Birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri final görüşlərini izləyiblər.***

***Finalda gürcüstanlı Elizbar Odikadze ilə güləşən Xetaq Qazyumov 3:1 hesabı ilə qalib gələrək birinci Avropa Oyunlarının çempionu olub.***

***Həmin gün "Baku Crystal Hall"da birinci Avropa Oyunları çərçivəsində taekvondo üzrə daha iki çəki dərəcəsində yarışlar keçirilib. Kişilər arasında 68 kiloqram çəkidə Azərbaycanı təmsil edən Ayxan Tağızadə yarımfinalda qalib gələrək finala vəsiqə qazanıb.***

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı, "Bakı-2015" Birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva gənc idmançımızın finala çıxmaq uğrunda mübarizəsini izləyiblər.***

***Final görüşündə Ayxan Tağızadə polşalı Karol Robak ilə qarşılaşdı. Rəqib üzərində inamlı qələbə qazanan idmançımız Birinci Avropa Oyunlarının çempionu oldu. Sonra qaliblərin mükafatlandırılması mərasimi keçirildi. Qalib idmançılarımızın şərəfinə Azərbaycanın Dövlət himni səsləndirildi, Dövlət bayrağımız ucaldıldı.***

* * *

***✓ İyunun 18-də keçirilən taekvondo yarışlarında iki idmançımız fərqlənib. Milad Beiqi Harçeqani qızıl, Fəridə Əzizova isə gümüş medalın sahibi olublar. Bununla da Birinci Avropa Oyunlarında Azərbaycanın aktivinə yazılan qızıl medalların sayı 12-yə çatıb.***

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı, "Bakı-2015" ilk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri "Baku Crystal Hall"da keçirilən yarışlarda idmançılarımızın final qarşılaşmalarını izləyiblər.***

***Kişilər arasında 80 kiloqram çəki dərəcəsində Azərbaycanı təmsil edən Milad Beiqi Harçeqani ilkin mərhələdən yarışa qoşuldu. İlk cəhdində serbiyalı Damir Feyziçlə üz-üzə gələn və bu görüşdən qələbə ilə ayrılan Harçeqani dörddə bir finalda Böyük Britaniya idmançısı Muhammed Lutalonu 17:5 hesabı ilə məğlub etdi. Azərbaycan idmançısı yarımfinalda portuqaliyalı Julio Ferreyra ilə döyüşdü və 6:2 hesabı ilə qalib gələrək finala çıxdı. Finalda rəqibi Rusiya idmançısı Albert Quanı 9:4 hesabı ilə məğlub edən Milad Beiqi Harçeqani Birinci Avropa Oyunlarının növbəti çempionu oldu.***

***Sonra mükafatlandırma mərasimi keçirildi.***

***Prezident İlham Əliyev qalib idmançılara medalları təqdim etdi.***

**AZƏRTAC-ın materialları əsasında**

*26 İyun - Silahlı Qüvvələr Günüdür*

# Vətənimizin etibarlı dayağı

## Müasir ordumuz Azərbaycanın müstəqilliyini qorumağa qadir olan əsas qüvvələrdən biridir



***Bu günlər xalqımız qürurverici anlarını yaşamaqdadır, çünki bütün dünyanın diqqəti ilk Avropa Oyunlarının keçirildiyi bir ünvana - Azərbaycana yönəlib. Ölkəmiz belə bir mötəbər idman yarışının keçirilməsi üçün qısa vaxtda əlverişli şərait yaradıb və bu, əcnəbi qonaqlarımızın ürəyincədir. Möhtəşəm idman sarayında keçirilən təntənəli açılış mərasiminə tamaşa edəndə, adamın qəlbi qürur hissi ilə döyünürdü. Düşünürsən ki, müstəqil Azərbaycan dövləti bütün uğurlarına çətin və mürəkkəb şəraitdə, özü də qısa bir vaxtda nail olub. Yarışın ilk günlərindən qələbəyə imza atanlar sırasında soydaşlarımızı da görəndə, müstəqilliyimizin rəmzi olan Dövlət himnimizin sədaları böyük idman arenasının divarlarını titrədəndə, doğrudan da, sevincdən göz yaşımıza hakim ola bilmirik.***

Əlbəttə, idman uğurlarımıza sevinənlər sırasında doğma ordumuzun şəxsi heyəti də vardır. Bu günlər hərbçilərimiz üçün ikiqat bayramdır, çünki onlar tarixi müstəqilliyimizlə həmyaşıd olan Silahlı Qüvvələrimizin yaranmasının 97-ci ildönümü ərəfəsindədir. Əslində, ordunun bayramı hər bir soydaşımızın, müstəqilliyimizin etibarlı dayağı olan hərbi qüvvələrimizin gücü ilə öyünən, fəxr edən vətəndaşlarımızın da bayramıdır. Ümumiyyətlə, müstəqil dövlətin qüdrətini, gücünü ifadə edən əsas amillərdən bəlkə də ən başlıcası onun güclü orduya malik olmasıdır. Qədim adət-ənənələrə, qəhrəmanlıq salnaməsinə malik olan Azərbaycan xalqı da əsrlər boyu öz azadlığı uğrunda mübarizə aparıb və dövlətçilik ənənələrini yaşadıb. Silahlı Qüvvələrimizin yaranma tarixinin 1918-ci ilə təsadüf etməsi də sübut edir ki, ordu müstəqilliyimizlə eyni bir vaxtda yaranıb. Ötən əsrin əvvəllərində öz müstəqilliyinə qovuşan Azərbaycan çox qısa dövlətçilik zamanına malik olmasına baxmayaraq, bu dövrdə ilk ordusunu yaratmağa imkan tapmışdı. Nə qədər çətinliklər və nöqsanlarla müşayiət olunmasına baxmayaraq, ilk ordu qüvvələrinin yaranması istiqamətində vacib tədbirlərin görülməsi Cümhuriyyətimizin uğuru idi. Mürəkkəb tarixi şəraitdə təşəkkül tapan dövlətçiliyimizi xarici qüvvələrin hərbi təcavüzlərindən qorumaq üçün ordunun yaradılması hava, su qədər vacib idi.

İlk müstəqillik dövrümüzün tarixinə diqqət yetirəndə Azərbaycan Ordusunun yaranması üçün zəhməti olan mübariz insanları, xüsusən də Əlağa Şıxlinski, Səməd bəy Mehmandarov kimi qüdrətli sərkərdələrimizi düşünürük, onların gərgin zəhmətinə heyran oluruq. Çünki o dövrdə də ordu döyüş meydanında yaranırdı, imperialist dövlətlərin hərbi təcavüzlərinin qarşısını almaq, xalqı erməni daşnaklarının qəsdlərindən qorumaq üçün ilk ordu qüvvələri, sözün həqiqi mənasında, xalqımızı müdafiə etmək üçün mübarizə əzmini əsirgəməyib. Həmin dövrdə ordunun keçdiyi mübarizə yolu əslində Cümhuriyyətimizin ilk qəhrəmanlıq salnaməsidir.

Deyirlər, tarix təkrar olunur, Azərbaycanın müstəqillik tarixi də bir əsrdə iki dəfə təkrar olundu. XX əsrin sonlarında xalqımız yenidən müstəqil dövlətçiliyini yaratmaq şansını qazandı. Amma bu dəfə də mürəkkəb tarixi şəraitlə üz-üzə qaldıq. Müstəqilliyimizin əleyhinə olan xarici qüvvələr gənc dövlətimizi beşiyindəcə boğmaq üçün əlindən gələni əsirgəmədi. Elə buna görə də Azərbaycan xalqı müstəqilliyi uğrunda mübarizədə minlərlə şəhid verdi, 20 faiz torpağını itirdi. Amma mübarizə əzmindən dönməyən xalq öz suverenliyini qoruyub saxladı. Bu yazını hazırladığım səhər evdəyəm, çünki Milli Qurtuluş Günündə hamıya istirahət verildiyi kimi, bu fürsətdən yararlanmışam. Ümummilli liderimizin Azərbaycanda siyasi hakimiyyətə qayıdışını artıq neçə illərdir ki, xalqımız əsl bayram coşqusu ilə qeyd edir. Deyərdim ki, ikinci dəfə bizə nəsib olan müstəqilliyimizin qorunub möhkəmlənməsində dahi rəhbərin hamıdan artıq gərgin zəhməti olub. Həmişə ulu öndərin Azərbaycan dövlətçiliyi naminə xidmətlərini düşünəndə, mənə elə gəlir ki, doğrudan da, xalqların tarixində müdrik şəxsiyyətlərin rolu danılmazdır. Məhz 22 il öncə, 1993-cü ilin 15 iyununda Azərbaycanda hakimiyyətə qayıdan müdrik dövlət xadimi Heydər Əliyevin ən vacib tədbirlərindən biri qısa vaxtda ordunu qurub yaratmaq idi və bu məqsədlə zəngin təcrübəsini əsirgəmədi. Dahi rəhbərin Azərbaycanda ordu qurulması naminə gördüyü işlərin tarixi isə lap əvvəllərə gedib çıxır. Bir dəfə Hərbi Dənizçilik Məktəbindən yazı hazırlayanda yüksək rütbəli zabitlərdən biri Sovet dövründə Azərbaycana rəhbərlik etmiş ümummilli liderimizin ötən əsrin 70-ci illərində bu məktəbə gəlişini xatırlatdı. Zabit mənə dedi ki, respublikanın birinci katibi buradakı kursantlar arasında azərbaycanlıların barmaqla sayılası qədər olduğunu biləndə hədsiz təəccüblənərək deyib: "Niyə Azərbaycanda yerləşən hərbi məktəbdə bizim övladlarımız təhsil almırlar?" Müsahibimə görə, məhz həmin hadisədən sonra respublikamızda gənclərin hərbi peşəyə həvəsini artırmaq üçün ardıcıl tədbirlər görülüb, indiki C.Naxçıvanski adına Hərbi Lisey yaradılıb, həmçinin gənclərin Sovet İttifaqının hərbi məktəblərinə göndərilməsi təmin edilib.

Ümummilli liderimiz daim tövsiyə edib ki, müstəqilliyin qorunmasına təminat verən başlıca amil güclü ordunun mövcudluğudur və bütün hakimiyyəti dövründə ordu quruculuğunu diqqətində saxlayıb. Elə bu baxımdan da bütün tədqiqatçılar, alimlər qeyd edir ki, müasir Azərbaycan Ordusunun yaradıcısı ulu öndər Heydər Əliyevdir. Şübhə yoxdur ki, öz müstəqilliyini yaşatmaq və qorumaq iradəsində olan xalqımız da bu sahədə dahi rəhbərə güclü dəstək olub, 1993-cü ildə onun bir çağırışı ilə minlərlə gəncimiz silaha sarılaraq Vətənin müdafiəsinə qalxıb. Birinci Qarabağ müharibəsindəki hərbi əməliyyatların iştirakçısı olan generallarımız, yüksək rütbəli zabitlərimiz də söhbətlərində daim qeyd edirlər ki, ümummilli liderimizin qızğın döyüşlərin getdiyi bölgələrə hər gəlişi, səngərdə əsgərlərlə görüşü ordunun şəxsi heyətində vətənpərvərlik ruhunun yüksəlməsinə zəmin yaradan əsas vasitə idi. Dahi rəhbər xalqın öz ordusuna dəstəyinə həmişə diqqət yetirib və qeyd edib ki, xalqın köməyi olmasa, qüdrətli ordu yaratmaq olmaz. Əslində güclü ordu xalqın iradəsi, istəyi ilə ölçülür, yəni öz müstəqilliyini yaşadan xalq ordusunu möhkəmləndirmək üçün əlindən gələni etməlidir. Mən sevinirəm ki, son illər valideynlər öz övladlarını ordu sıralarına, hərbi xidmətə əsl toy-büsatla yola salır. Bəzi bölgələrdə orduya yolasalınma mərasimlərinə haqlı olaraq "Əsgər toyu" adı veriblər. "Oğullar Vətən üçün doğulur", - deyən ata-ana əgər öz övladını sabahın əsgəri kimi böyüdürsə, onda ordunun da gücü, qüdrəti artacaqdır. Yaxın günlərin söhbətidir, iş yerimdən çıxıb evə gedəndə ictimai nəqliyyatda şahidi olduğum bir əhvalat ürəyimi qürurlandırdı. 4-5 yaşında bir oğlan uşağı anasının yanında ayaqüstə dayanmışdı. Dünya görmüş nurani bir kişi soruşdu ki, "oğul, böyüyəndə nəçi olacaqsan?" Uşaq isə cavabında nə desə yaxşıdır? "Baba, əsgər olacam!". Bax, budur ailədə və cəmiyyətdə əsl vətənpərvərlik nümunəsi. Ali Baş Komandanımız da 2014-cü ilin avqust hadisələrindən sonra Ağdam bölgəsində, döyüşçülərlə görüşəndə, gənc nəslin vətənpərvərliyini yüksək qiymətləndirərək qeyd etmişdi ki, "Silahlı Qüvvələrimizin əsas gücü vətənpərvər əsgərlərində, zabitlərindədir".

Ümummilli liderimizin layiqli davamçısı olan Azərbaycan Prezidenti cənab İlham Əliyev də 2003-cü ildə ölkəmizdə siyasi hakimiyyətə gəlişindən sonra ordu quruculuğuna daim böyük diqqət yetirib, Silahlı Qüvvələrin gücünü artırmağı dövlətin siyasi kursunda başlıca istiqamət elan edib. Müasir dövrdə regionun ən təcrübəli lideri olan Prezidentimiz müstəqil dövlətçiliyimizi möhkəmləndirmək üçün var qüvvəsini əsirgəmir. Hər dəfə sərhəd bölgələrinə səfərlərində ön xətdə əsgərlərlə görüşməyi özünə borc bilən dövlətimizin başçısı əslində bununla vətənpərvərlik nümunəsini ortaya qoyur. Qoy hər kəs, istənilən dövlət məmuru bu örnəkdən nümunə götürsün. Hazırda Müdafiə Nazirliyinin rəhbərliyi, şəxsən general-polkovnik Zakir Həsənov müntəzəm olaraq cəbhə xəttində şəxsi heyətlə görüşür, gənc döyüşçülərin məişət şəraitini yaxşılaşdırmaq üçün əlindən gələni edir. Elə buna görə də ötən dövrlərlə müqayisədə ordunun sosial-məişət şəraiti, əsgərin milli yeməklərlə təmin edilməsindən tutmuş keyfiyyətli geyiminə qədər - bütün məsələlər ordu rəhbərliyinin diqqətindədir.

Qəzetimizin əməkdaşları vaxtaşırı ictimai tədbirlərdə olur, həmçinin "Ordu və cəmiyyət" rubrikasında müxtəlif peşə sahiblərindən, ziyalılardan, millət vəkillərindən, ağsaqqallardan müsahibə alırlar. İnanın, hər kəs Azərbaycan Ordusunun artan gücündən, qüdrətindən fəxrlə söhbət açaraq orduda həyata keçirilən son islahatlara dəstək nümayiş etdirir. Əlbəttə, bu, orduya ümumxalq istəyinin ifadəsidir. Və sonda əminliklə qeyd etmək istərdim ki, bütöv bir xalqın arzu və istəklərinin tərənnümü olan doğma ordumuz daim müstəqil Vətənimizin ən etibarlı dayağı olacaqdır.

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

# "Hər kəs vəzifə borcuna məsuliyyətini artırmalıdır"

## Şəxsi heyətlə iş üzrə komandir müavinlərinin təlim-metodiki toplantısı

***Azərbaycan Respublikası Silahlı Qüvvələrinin döyüş hazırlığı planına əsasən, iyunun 16-da Əlahiddə Ümumqoşun Ordusunun, birlik, birləşmə və hərbi hissələrin şəxsi heyətlə iş üzrə komandir müavinlərinin Gəncə Qarnizonu Zabitlər Evində üç günlük təlim-metodiki toplantısı öz işinə başlayıb.***




Tədbiri açıq elan edən Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəis müavini polkovnik Abdulla Qurbani toplantının əlamətdar bir vaxtda - xalqımızın Milli Qurtuluş Gününü bayram etdiyi və ölkəmizdə ilk Avropa Oyunlarının başlandığı günlərdə keçirildiyini zabitlərin diqqətinə çatdırıb.

O, "Silahlı Qüvvələrdə mənəvi-psixoloji hazırlıq işinin vəziyyəti, problemlər və perspektivlər" mövzusunda məruzə edərək son illər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin yüksək diqqət və qayğısı nəticəsində orduda həyata keçirilən islahatlardan, ötən dövr ərzində şəxsi heyətin mənəvi-psixoloji hazırlığı sahəsində qazanılmış uğurlardan danışıb.

Məruzəçi bildirib ki, cari ilin qış tədris dövründə Silahlı Qüvvələrdə mənəvi-psixoloji hazırlıq işi şəxsi heyətin milli-mənəvi dəyərlər əsasında tərbiyə olunmasına, əsgəri borcun, komandir və rəislərin əmrlərinin sözsüz yerinə yetirilməsinə şüurlu münasibətin, Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi Anda və nizamnamələrə sədaqət hisslərinin formalaşmasına yönəldilib. Şəxsi heyətə yüksək döyüş, mənəvi-psixoloji və əxlaqi keyfiyyətlər aşılanıb.

Mənəvi-psixoloji hazırlıq işinin səmərəliliyinin artırılması, yüksək hərbi intizamın saxlanılması, cinayət və hadisələrin qarşısının alınması məqsədilə zəruri tədbirlərin həyata keçirilməsi barədə Müdafiə nazirinin müvafiq göstərişləri şəxsi heyətlə iş üzrə zabitlərin fəaliyyətinin prioriteti olmuşdur. Həmçinin, Müdafiə nazirinin Silahlı Qüvvələrin qoşun növü komandanlığının, birlik komandirləri və xüsusi təyinatlı təhsil müəssisələri rəislərinin şəxsi heyətlə iş üzrə müavinləri və hərbi məktəblərin məzunları ilə görüşləri zamanı qarşıya qoyduğu mühüm tapşırıqlar geniş fəaliyyət proqramıdır.

Məruzəçi sonda vurğulayıb ki, mənəvi-psixoloji hazırlıq işini yüksək səviyyəyə qaldırmaq, intizamı möhkəmləndirmək, şəxsi heyətlə iş üzrə zabitlərin bilik və bacarıqlarının artırılması, hərbi qulluqçuların sosial müdafiəsini gücləndirmək, orduda ictimai nəzarəti təmin etmək, həmçinin, təbliğat və təşviqat işinin səmərəliliyini artırmaq, dövlət bayramları və əlamətdar günlərdə ictimai təşkilatlarla birgə hərbi vətənpərvərlik tədbirlərini təşkil etmək qarşıya qoyulan əsas vəzifələrdəndir.

Məruzə dinlənildikdən sonra müzakirələr başlanıb. Müzakirələrdə polkovniklər Mirqiyas Rüstəmov, Elşad Əbilov, İslam Gəncəliyev, Nazim Əhmədov, Valeh Rəcəbov və başqaları çıxış edərək birlik, birləşmə və hərbi hissələrdə mənəvi-psixoloji hazırlıq və hərbi intizamın vəziyyəti, mövcud nöqsanların aradan qaldırılması istiqamətində görülən tədbirlər barədə danışıblar.



Sonra Ermənistanın Azərbaycana silahlı təcavüzü nəticəsində ölkəmizin məruz qaldığı itki və tələfatların hesablanması üzrə işçi qrupu ilə görüş olub. İşçi qrupun sədri, millət vəkili, professor Xanhüseyn Kazımlı və qrup üzvləri çıxış edib, toplantı iştirakçılarının suallarını cavablandırıblar.

Zabitlərin peşəkarlıq və hazırlıq səviyyəsini yoxlamaq məqsədilə məqbullar qəbul edilib.

Toplantının ilk günü mədəni-kütləvi proqramla başa çatıb.

Gəncə hərbi prokuroru ədliyyə polkovniki Əmrah Mehdiyev növbəti gün tədbirdə iştirak edib. Toplantı iştirakçılarını qarşıdan gələn əlamətdar gün - Azərbaycan Silahlı Qüvvələrinin 97-ci ildönümü münasibətilə təbrik edən hərbi prokuror müstəqil dövlətimizin əsas atributlarından olan ordunun möhkəmləndirilməsi istiqamətində ölkə rəhbərliyi tərəfindən aparılan islahatlardan və son dövrlər hərbi xərclərin dəfələrlə artırılmasından söhbət açıb. O bildirib ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə orduda görülən işlər qısa vaxt ərzində Silahlı Qüvvələrin döyüş qabiliyyətinin daha da güclənməsinə möhkəm zəmin yaradıb. Aparılan önəmli islahatların nəticəsi olaraq, ordunun şəxsi heyətində sağlam əhval-ruhiyyənin yarandığını bildirən natiqin sözlərinə görə, komandirlərin şəxsi heyətlə iş üzrə müavinləri ilə birgə həyata keçirilən profilaktik tədbirlər, gənc əsgərlərin hüquqi maarifləndirilməsi və s. orduda intizamın möhkəmlənməsinə və qanunçuluğa riayət edilməsinə kömək edən amillərdir. "Biz birgə səmərəli fəaliyyət göstərməklə ölkəmizin müdafiə qüdrətinin artırılmasına və qarşımızda dayanan ən ümdə problemin - torpaqlarımızın işğaldan azad edilməsinə qısa vaxtda nail olmaq üçün səylərimizi əsirgəməməliyik", - deyə hərbi prokuror bildirib. Ədliyyə polkovniki tədbir iştirakçılarının suallarını cavablandırıb.



Sonra Gəncə Qarnizon hərbi polisinin rəisi polkovnik-leytenant İlham Həsənov çıxış edib. Uzun müddət orduda zabit kimi xidmət etdiyini bildirən natiq də Silahlı Qüvvələr Günü ərəfəsində zabit həmkarlarına təbriklərini ünvanlayıb. Müasir dövrdə ölkəmizin hərbi qüdrətinin güclənməsindən qürurlandığını deyən polkovnik-leytenant hərbi qulluqçuların ictimai yerlərdə nəzakət və hərbi etika qaydalarına əməl etmələrinin vacibliyini diqqətə çatdırıb. Qeyd edib ki, orduda xidmət edən hər kəsə cəmiyyətimizdə böyük hörmət vardır, bu isə Silahlı Qüvvələrimizin döyüş əzminin güclənməsinə xalqın inamının təzahürüdür.

Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin, habelə hərbi hissələrin nümayəndələrinin müxtəlif mövzularda çıxışları ilə davam edən tədbirin ikinci günü də maraqlı mədəni-kütləvi tədbirlərlə yadda qalıb. Qədim Gəncənin görməli yerləri ilə tanış olan toplantı iştirakçıları Heydər Əliyev Mərkəzini də ziyarət ediblər. Burada xalqımızın ümummilli liderinin mənalı ömür yolu və müxtəlif tarixi dövrlərdə ölkəmizə rəhbərliyi barədə ətraflı məlumatlandırılan zabitlər maraqlı eksponatlarla tanış olublar.

Təlim-metodiki toplantının işinə yekun vuran Müdafiə nazirinin müavini, Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim Vəliyev bu ilin ilk yarımilliyində Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən ordunun döyüş qabiliyyətinin gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərdən geniş söhbət açıb. Şəxsi heyətin döyüş ruhunun artırılması sahəsindəki işlərdən danışan nazir müavini kütləvi hərbi vətənpərvərlik tədbirlərinin, həmçinin dövlət başçısının sərəncamlarına uyğun olaraq Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, görkəmli hərb xadimləri olan Əlağa Şıxlinskinin anadan olmasının 150 və Cəmşid Naxçıvanskinin anadan olmasının 120 illiyi ilə bağlı bölgələrdə keçirilən yüksək səviyyəli vətənpərvərlik tədbirlərinin, habelə faşizm üzərində tarixi qələbənin 70-ci ildönümü ilə əlaqədar mərasimlərin, "Ordu ilə xalq birdir" mövzusunda bədii təşviqat marafonunun geniş ictimaiyyət tərəfindən rəğbətlə qarşılandığını diqqətə çatdırıb.

"Müdafiə naziri general-polkovnik Zakir Həsənov ötən yarımillikdə şəxsi heyətlə iş üzrə komandir müavinləri ilə görüş keçirib və bu sahədə vacib tövsiyələrini vurğulayıb. Bu bir daha onu göstərir ki, Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən sizə böyük diqqət və etimad göstərilir. Nazir daim bildirir ki, şəxsi heyətlə əlaqədar bütün məsələlər sizin fəaliyyətinizlə bağlıdır", - deyə general-leytenant K.Vəliyev qeyd edib ki, tərbiyə işinin keyfiyyətini artırmaq üçün şəxsi heyətlə işə cavabdeh olan zabitlərin üzərinə böyük məsuliyyət düşür. "Tabeliyinizdə olan şəxsi heyətlə səmərəli profilaktik işlər aparın, onlara ümummilli liderin ideyalarını aşılayın. Dahi rəhbərin xalqa, Vətənə həsr olunmuş zəngin ömür yolunu gənc döyüşçülərə nümunə göstərin. Bundan əlavə, hər bir zabit liderlik keyfiyyətlərinə malik olmalı və vəzifə borcuna məsuliyyət hissini daha da artırmalıdır".

Nazir müavini çıxışının sonunda əmin olduğunu bildirib ki, şəxsi heyətlə iş üzrə komandir müavinləri dövlət başçısı və Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən qarşıya qoyulan vəzifə və tapşırıqlara daha tələbkar yanaşaraq vəzifə borcuna məsuliyyət hissini artıracaqlar.

Axırda general-leytenant Kərim Vəliyev toplantı iştirakçılarının suallarına cavab verib.

**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

***17 iyun 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 88 dəfə pozub.

Ermənistan Respublikasının İcevan rayonunun Vazaşen kəndində yerləşən mövqelərdən Qazax rayonunun ərazisindəki adsız yüksəkliklərdə, Berd rayonunun Ayqepar, Mosesqex və Çinari kəndlərində yerləşən mövqelərindən Tovuz rayonunun Əlibəyli, Ağdam və Koxanəbi kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Tərtər rayonunun Çiləbürt, Göyarx, Yarımca, Ağdam rayonunun Şuraabad, Şıxlar, Kəngərli, Yusifcanlı, Qaraqaşlı, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

***18 iyun 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 76 dəfə pozub.

Ermənistan Respublikasının İcevan rayonunun Vazaşen kəndində yerləşən mövqelərdən Qazax rayonunun ərazisindəki adsız yüksəkliklərdə, Berd rayonunun Ayqepar, Mosesqex və Çinari kəndlərində yerləşən mövqelərindən Tovuz rayonunun Əlibəyli, Ağdam və Koxanəbi kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Tapqaraqoyunlu, Tərtər rayonunun Çiləbürt, Göyarx, Yarımca, Qızıloba, Ağdam rayonunun Şuraabad, Şıxlar, Kəngərli, Yusifcanlı, Qaraqaşlı, Baş Qərvənd, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz, Aşağı Seyidəhmədli, Aşağı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

***19 iyun 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 80 dəfə pozub.

Ermənistan Respublikasının İcevan rayonunun Vazaşen kəndində yerləşən mövqelərdən Qazax rayonunun ərazisindəki adsız yüksəkliklərdə, Berd rayonunun Ayqepar, Mosesqex və Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Ağdam və Koxanəbi kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Tərtər rayonunun Çiləbürt, Göyarx, Ağdam rayonunun Şuraabad, Şıxlar, Kəngərli, Yusifcanlı, Qaraqaşlı, Baş Qərvənd, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

# Uğurlarda ordu idmançılarının da payı vardır

## Birinci Avropa Oyunlarında uğurla çıxış edən Azərbaycan idmançı və mütəxəssisləri arasında ordumuz da layiqincə təmsil olunur





***Bu gün dünyanın gözü Azərbaycanın paytaxtı gözəl Bakı şəhərinə dikilib, bütün qitələrin idman həvəskarları ilk dəfə keçirilən Avropa Oyunlarını dərin maraq hissilə izləyirlər. Fərəhləndirici haldır ki, Azərbaycan idmançıları bu mötəbər tədbirdə ölkəmizi yüksək səviyyədə təmsil edirlər. İndiyədək Odlar Yurdunun pəhləvan və atletləri 30-dək medal qazanıblar ki, onların da 12-si ən yüksək əyarlıdır. Medalların sayına və əyarına görə Azərbaycan 50 Avropa ölkəsi arasında hazırda yalnız Rusiya Federasiyasından geri qalır və ikinci pillədə qərarlaşır. Azərbaycan idmançıları, sözün həqiqi mənasında, bununla görünməmiş nailiyyətə imza atıblar. Ölkəmizdə dövlət səviyyəsində idmanın inkişafına göstərilən böyük qayğının nəticəsində hər bir vətənsevər azərbaycanlıda qürur doğuran uğurları əldə etmək mümkün olub.***

Azərbaycan idmançılarının dünya səviyyəli idman bayramında qazandıqları nailiyyətlərə Silahlı Qüvvələrimizin idman mütəxəssisləri və idmançıları da öz töhfələrini verməkdədirlər. Ordu idmançılarından hazırda hərbi xidmətdə olan sərbəst güləş üzrə Olimpiya çempionu Toğrul Əsgərov Avropa Oyunlarında da ən güclü olduğunu sübuta yetirdi və 65 kiloqram çəki dərəcəsində qızıl medala layiq görüldü. Avropa Oyunlarının qalibinə medalı Azərbaycan Prezidenti İlham Əliyev təqdim etdi.

Sonuncu dünya çempionu Hacı Əliyev də 61 kiloqram çəki dərəcəsində uğurla çıxış edərək yarışların bürünc medalını boynundan asdı. Onun qardaşı, 57 kiloqramda ölkəmizi təmsil edən Yaşar Əliyev isə qardaşı Hacı kimi erməni idmançısına heç bir şans verməyərək onları medallar uğrunda mübarizədən kənarlaşdırdı.

Avropa Oyunlarında su polosu üzrə yarışlarda da Azərbaycan yığma komandasında ordu idmançıları və mütəxəssisləri yetərincə təmsil olunublar. Təkcə onu demək kifayətdir ki, Azərbaycan yığma komandasının baş məşqçisi Mərkəzi Ordu İdman Klubunun mütəxəssisidir. Birinci Avropa Oyunlarında iştirak edən su polosuçularımızı yarışa respublikamızın əməkdar məşqçisi Azər Babayev hazırlayıb. Ona MOİK-in nümayəndəsi miçman Oqtay Dadaşov kömək edir.

Ordu idmançılarından İlyas Əhmədovun, Ayxan Tofiqin və Ayrat İsmayılovun da daxil olduğu komandamız 16 ən güclü Avropa komandasının mübarizə apardığı bu yarışlarda artıq üçüncü qələbəsini qazanıb. Su polosuçularımız Rumıniya komandasını 9:6, Malta komandasını 8:7, Ukrayna komandasını isə 12:8 hesabı ilə yenməyi bacarıblar.

Birinci Avropa Oyunlarının Azərbaycana layiq keçirilməsi və yarışların yüksək səviyyədə idarə edilməsi üçün cəlb edilmiş hakimlərimiz arasında respublikamızın tanınmış voleybol mütəxəssisi, beynəlxalq dərəcəli hakim Eldar Əliyev də ordumuzun idman ictimaiyyətini təmsil edir. Onun idarəçiliyi ilə keçirilən kişi və qadınlar arasında voleybol yarışları daim şəffaflığı ilə seçilir.

- Bildiyiniz kimi, Mərkəzi Ordu İdman Klubu Azərbaycanın ən köklü idman qurumlarındandır, - bizimlə söhbətində klubun rəisi polkovnik-leytenant Rəşad Quliyev bildirdi. - MOİK keçmiş Sovetlər Birliyi dövründə, 1961-ci ildə yaradılıb. O zamandan ordu idmançıları müxtəlif yarışlarda uğurlu nəticələr qazanıb. Ancaq MOİK-in ən böyük uğurları Azərbaycan müstəqillik əldə etdikdən sonrakı dövrə təsadüf edib.



Azərbaycan Respublikası Müdafiə Nazirliyinin tərkibinə verilən MOİK-in idmançıları Avropa, dünya çempionatları və Olimpiya Oyunlarında iştirak edərək ölkəmizə sanballı medallar qazandırıblar. Belə mötəbər yarışlarda əldə etdikləri uğurlara görə ordumuzun idman klubunun adı Gənclər və İdman Nazirliyi tərəfindən həmişə ən yaxşı idman klubları sırasında çəkilib.

Bu gün Mərkəzi Ordu İdman Klubunda təmirlə əlaqədar bir sıra idman növləri üzrə təlim və məşq prosesi Gənclər və İdman Nazirliyi və Milli Olimpiya Komitəsilə razılaşdırılaraq digər idman klublarında davam etdirilir.

Qeyd etmək yerinə düşər ki, MOİK 1994-cü ildən Beynəlxalq Hərbi İdman Şurasının (SİZM) fəal üzvlərindəndir. 1995-ci ildən bəri keçirilən bütün beş Hərbi Olimpiya Oyunlarında Azərbaycan Ordusunun idmançıları geniş tərkibdə təmsil ediliblər və Azərbaycanın bayrağını ucaldıblar. Eyni zamanda, ölkəmiz cüdo, güləş, boks, futbol üzrə hərbçilər arasında keçirilən dünya çempionatları və kubokuna ev sahibliyi edib. Bu yarışlarda da ordumuzun idmançıları ölkəmizi layiqincə təmsil edib və yüksək əyarlı medallar qazanıblar.

- Bu gün Müdafiə naziri general-polkovnik Zakir Həsənov orduda xidmət edən zabit, gizir və əsgərlərin fiziki hazırlığının artırılmasına, idmana böyük diqqət göstərir, - zabit Rəşad Quliyev qeyd edir. - Hərbi qulluqçuların fiziki hazırlığının yüksəldilməsi döyüş hazırlığının tərkib hissəsi kimi dəyərləndirilir. Bununla yanaşı, ənənəvi olaraq Silahlı Qüvvələrimizin ayda bir dəfə idman birinciliyi keçirilir ki, bu da ordu idmanının inkişafına Müdafiə Nazirliyi rəhbərliyinin diqqət və qayğısının nəticəsidir.

Hazırda Birinci Avropa Oyunlarının qızğın dövrüdür. Qarşıda idman mübarizəsi şəraitində keçən bir sıra yarışlar durur. Bu yarışlarda Azərbaycan idmançılarından yeni-yeni medallar gözləyirik. İnanırıq ki, ölkəmizi, o cümlədən ordumuzu təmsil edən idmançılar uğurla çıxış edərək yüksək yerlər tutacaq, üçrəngli bayrağımızı qürurla dalğalandıraraq, doğma Azərbaycanımızın adını Birinci Avropa Oyunlarının tarixinə qızıl hərflərlə yazdıracaqlar.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

Hərbi təhsil

# Heydər Əliyev adına Hərbi Lisey kursantlarının buraxılış mərasimi keçirilib

***İyunun 17-də Heydər Əliyev adına Hərbi Lisey kursantlarının 2015-ci il buraxılışı münasibətilə tədbir keçirilib.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Respublikası Müdafiə nazirinin müavini, Əlahiddə Ümumqoşun Ordusunun komandanı general-leytenant Kərəm Mustafayev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbova mərasimə hazırlıq barədə raport verib.

Ali Məclisin sədri kursantları salamlayıb.

Kursantlar orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət himnini ifa ediblər.

Hərbi Liseyin rəisi polkovnik Elman Orucov çıxış edərək deyib ki, son illər həyata keçirilən kompleks tədbirlər nəticəsində Heydər Əliyev adına Hərbi Liseyin tədris imkanları xeyli yaxşılaşdırılıb, kursantlar üçün müasir şərait yaradılıb. Bütün bunlar bilikli və vətənpərvər gənc zabitlərin yetişdirilməsində mühüm rol oynayır. Liseydə kursantların hərbi və elmi biliklərə yiyələnməsi ilə yanaşı, idmanın müxtəlif növləri ilə məşğul olmasına da diqqət yetirilir, onların muxtar respublikamızda keçirilən idman birinciliklərində fəal iştirakı təmin edilir. Həmçinin, liseydə kursantların yaradıcılığını və fənlərə olan marağını artırmaq məqsədilə 19 dərnək fəaliyyət göstərir. Yaradılan şərait gənclərin hərb sənətinə marağını xeyli artırıb. 2015-2016-cı tədris ilində Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunmaq üçün 977 gənc sənəd verib, onlardan 603-ü qəbul imtahanlarında iştirak etmək hüququ qazanıb. Bununla yanaşı, kursantların mənəvi tərbiyəsini yüksəltmək məqsədi ilə Naxçıvan Dövlət Musiqili Dram Teatrı, 8 muzey və 2 kitabxana ilə müqavilə bağlanaraq onların imkanlarından da geniş istifadə olunur.



Elman Orucov yaradılan şəraitə görə, kollektiv adından Ali Məclisin sədrinə minnətdarlıq edib, təhsilli və vətənpərvər kursantların yetişdirilməsi istiqamətində bundan sonra da qüvvə və bacarıqlarını əsirgəməyəcəklərini bildirib.

Valideyn Tofiq Nəcəfov qeyd edib ki, bu gün hərbi təhsilini bitirib ali hərbi məktəbə yollanan kursantların valideynləri iftixar və qürur hissləri keçirir, övladlarının işıqlı gələcəyinə inanırlar. Çünki bu gənclər müstəqil Azərbaycanın qüdrətli ordusunun gələcək zabitləridir. Kursantların vətənpərvər, bilikli və sağlam bir gənc kimi yetişməsi üçün liseydə yaradılan müasir tədris və məişət şəraiti bütövlükdə Azərbaycan gəncliyinə və Azərbaycan Ordusuna göstərilən diqqətin təzahürüdür.

Kursant Sənan Quliyev çıxışında bildirib ki, hər bir gənc bu mötəbər hərbi təhsil müəssisəsində təhsil aldığına görə fəxr edir və özünü Vətən müdafiəçisi hesab edir. Müasir tədris bazası olan Hərbi Liseydə qazanılan bilik və bacarıqlar gənclərin peşəkar zabit kimi yetişməsində müstəsna rol oynayır. Bu gün məzun olan kursantlar qarşıdakı təhsil illərində də intizamlı olacaq və yüksək bilik əldə edərək Hərbi Liseyin adını daim uca tutacaq, ulu öndər Heydər Əliyevin ideyalarına sadiq qalacaq, Vətənimizin xoşbəxt gələcəyi, işğal altında olan torpaqlarımızın azad olunması və müstəqilliyimizin qorunub saxlanması yolunda var qüvvə ilə çalışacaqlar.

Müəllimlərdən Məryəm Vəlibəyova deyib ki, Heydər Əliyev adına Hərbi Lisey Azərbaycan xalqının və dövlətinin mənafeyinə xidmət edən müqəddəs vəzifəni həyata keçirir. "Liseyin müəllimləri üzərlərinə düşən məsuliyyəti dərindən dərk edir, tədrisin keyfiyyətini və səviyyəsini yüksəltmək üçün səy göstərirlər. Müəllim əməyinə dövlətimiz tərəfindən verilən qiymət pedaqoji heyəti ruhlandırır, bilikli, savadlı və vətənpərvər gənclərin yetişdirilməsi işində daha səylə çalışmağa şövq edir".

Heydər Əliyev adına Hərbi Liseydə çalışmaqdan, gələcəyin sərkərdələrini yetişdirmək yolunda xidmət göstərməkdən böyük qürur duyduqlarını bildirən Məryəm Vəlibəyova yaradılan müasir şəraitdən faydalanaraq milli ordumuzun kadr potensialının gücləndirilməsinə bundan sonra da öz töhfələrini verəcəklərini bildirib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov Heydər Əliyev adına Hərbi Lisey kursantlarının 15-ci buraxılışı münasibətilə kursant, zabit və müəllim heyətini, tədbir iştirakçılarını təbrik edərək deyib: "Hərbi təhsil, ixtisaslı hərbi kadrların hazırlanması ordu quruculuğunun əsasını təşkil edir. Bu amili diqqət mərkəzində saxlayan ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, gəncləri, yeniyetmələri hərbi məktəblərə daxil olmaq və Silahlı Qüvvələrimizin zabit korpusunda xidmət etmək üçün hazırlamaq qarşımızda duran ən mühüm vəzifədir. İstər keçmiş Sovetlər birliyi, istərsə də müstəqillik dövründə gənclərin hərb sənətinə yiyələnməsini prioritet sahə elan edən ulu öndərimiz bu istiqamətdə mühüm işlər görmüş, milli hərbi kadrların formalaşdırılmasının əsasını qoymuşdur".

Ali Məclisin sədri deyib: "Ulu öndərin müəyyənləşdirdiyi ordu quruculuğu strategiyası bu gün ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında uğurla davam etdirilir. Muxtar respublikada yerləşən ordu, hərbi hissə və birləşmələrin döyüş hazırlığı, şəxsi heyətin xidmət şəraiti ilbəil yaxşılaşdırılır. Heydər Əliyev adına Hərbi Liseyin yaranması və keçdiyi inkişaf yolu da bu sahədə görülən işlərin tərkib hissəsi kimi mühüm əhəmiyyətə malikdir. Ötən dövrdə ölkə Prezidentinin diqqət və qayğısı ilə Hərbi Lisey mühüm təşkilatlanma və inkişaf yolu keçib, burada nümunəvi hərbi tədris sistemi, möhkəm maddi-texniki baza yaradılıb. 56 kursantla fəaliyyətə başlayan lisey bu gün gəncləri öz ətrafında birləşdirən mötəbər hərbi tədris müəssisəsidir. Hazırda liseydə 657 kursant təhsil alır. Ötən dövrdə Hərbi Liseyi bitirən kursantlardan 2072-si ali hərbi məktəblərə qəbul olunub. Liseyin minə yaxın məzunu Azərbaycan Respublikası Silahlı Qüvvələrində zabit kimi xidmətlərini davam etdirir.



Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, "Hərbi peşə insandan həm fiziki hazırlıq, həm nizam-intizam, həm dövlətə, Vətənə, ölkəyə, doğma torpağa sədaqət, həm də böyük cəfakeşlik, zəhmətsevərlik, mərdlik, qəhrəmanlıq, mətinlik tələb edir". Bu gün Heydər Əliyev adına Hərbi Liseyin kursantlarına baxarkən vətənpərvər, dövlətinə və xalqına sədaqətli, mərd və cəsur Azərbaycan gəncliyini görür, gələcəyimiz olan bu gəncliklə qürur hissi keçiririk".



Ali Məclisin sədri kursantlara müraciət edərək deyib: "Gənclərin yaxşı təhsil alması və peşə sahibi olması ölkənin gələcək inkişafını şərtləndirən başlıca amildir. Hər bir gənc harada yaşamasından və fəaliyyət göstərməsindən asılı olmayaraq mütləq bir peşə öyrənməlidir. ümummilli liderimiz isə tövsiyə edirdi ki, zabit olmaq, Vətəni qorumaq peşəsi bu peşələrin hamısından yüksəkdə dayanır. Çünki zabit adını daşımaq böyük məsuliyyətdir və Azərbaycan Ordusunun zabiti kimi xalqımıza və Vətənimizə sədaqətlə xidmət etmək qarşınızda duran əsas vəzifədir. Bundan sonra da yaxşı təhsil almalı, hərb sənətinə dərindən yiyələnməli, bilik və təcrübənizi artırmalısınız. Gələcəkdə harada xidmət etməyinizdən asılı olmayaraq unutmamalısınız ki, siz müstəqil Azərbaycanın qurucusu, ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan Hərbi Liseyin məzunlarısınız. Bu adı daim uca tutmalı, onu nümunəvi xidmətinizlə doğrultmalısınız".

Ali Məclisin sədri liseyin kursantlarına və məzunlarına bundan sonrakı hərbi təhsil illərində və gələcək hərbi xidmət dövründə uğurlar arzulayıb.

Sonra Ali Məclisin sədri liseyin əlaçı kursantlarına attestatları təqdim edib, zabit, müəllim və kursantları mükafatlandırıbdır.

Kursant Gündüz Babazadə təhsil ocağının rəmzi kötüyünə xatirə lövhəsi vurub.

Orkestrin müşayiəti ilə "Hərbi Lisey marşı" ifa edilib, şəxsi heyət təntənəli marşın sədaları altında nizami addımlarla tribunanın önündən keçib.

Ali Məclisin sədri ümummilli liderimiz Heydər Əliyevin Hərbi Liseydəki büstü önündə kursantlarla xatirə şəkli çəkdirib.

Sonra Ali Məclisin sədri Hərbi Liseydə kursantların yaşayışı, qidalanması, tədrisin keyfiyyəti və xidmətin təşkili ilə maraqlanıb.

Bildirilib ki, Hərbi Liseydə əsaslı təmir işləri aparılıb, kursant yataqxanası və tədris korpusu müasir tələblər səviyyəsində qurulub. Yataqxana binasında kursantlar üçün müasir məişət şəraiti yaradılıb, yeni yataq dəstləri qoyulub. Burada kursantların asudə vaxtının səmərəli təşkili də təmin edilib, istirahət zalında təbiət və idman guşələri yaradılıb. Kursantlar gündəlik mətbuatı izləmək, şahmat və digər idman növləri ilə məşğul olmaq imkanlarına malikdirlər.



Ali Məclisin sədrinə hərbi dərslərin mütəşəkkil keçirilməsi üçün istifadə olunan əyani tədris vasitələri barədə məlumat verilib. Qeyd olunub ki, hərbi biliyin müxtəlif sahələrinə aid tədris vasitələri keçilən dərslərin dərindən mənimsənilməsinə, qazanılan biliklərin möhkəmləndirilməsinə və kursantlarda ilkin peşə vərdişlərinin formalaşmasına kömək edir. Qərargah binasında yerləşən atəş hazırlığı sinfi və hərbi kabinə də bu baxımdan mühüm əhəmiyyətə malikdir. Burada müasir avadanlıqlar, kompüter dəstləri və iki atış monitoru quraşdırılıb. Monitorlarda real şəraitə uyğun olaraq hədəflərin yaxın və uzaqlığını, müxtəlif hava, məhdudgörmə və relyef şəraitini, eləcə də avtomatik və tək-tək atəş rejimini seçmək mümkündür. Atış başa çatdıqdan sonra nəticələr monitorda əks olunur və kursantların nişanalma bacarıqları haqqında məlumat verilir.

Ali Məclisin sədri Heydər Əliyev adına Hərbi Lisey kursantlarının, eləcə də ümumtəhsil məktəblərinin şagirdlərinin muxtar respublikadakı atıcılıq mərkəzlərindən istifadəsinin əhəmiyyətini qeyd edib, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri yanında Gənclər Fondunun, Təhsil, Gənclər və İdman nazirliklərinin bu sahədəki birgə fəaliyyətinin vacibliyini vurğulayıb.



Binadakı Heydər Əliyev Muzeyində ümummilli liderimiz Heydər Əliyevin ordu quruculuğu sahəsində həyata keçirdiyi tədbirlərdən bəhs edən kitablar, dahi şəxsiyyətin Hərbi Liseyə səfərlərini əks etdirən fotoşəkillər nümayiş etdirilir. Eksponatlar sırasında ötən əsrin 90-cı illərində Naxçıvanda milli ordunun formalaşdırılması ilə bağlı qəbul olunan taleyüklü qərarların surətləri, həmin dövrə aid fotoşəkillər xüsusi maraq doğurur.

Ali Məclisin sədri yeməkxanada olub, kursantların qidalanması ilə maraqlanıb.

Tədris korpusuna baxış zamanı qeyd olunub ki, Hərbi Liseydə tədrisin keyfiyyətini daha da artırmaq üçün ardıcıl tədbirlər görülür. Binadakı sinif otaqları müasir avadanlıqlarla təmin edilib, ana dili kabinəsi, kimya, biologiya və fizika laboratoriyaları, kompüterlər quraşdırılan xarici dil kabinələri, idman zalı, elmi, bədii, hərbi və tarixi ədəbiyyatlarla təmin olunmuş zəngin kitabxana kursantların istifadəsinə verilib. Hazırda kitabxana fondunda 17 mindən artıq ədəbiyyat və dərslik var. Hərbi Liseydə dərslərin interaktiv formada keçirilməsi də diqqət mərkəzində saxlanılıb, fənn kabinələrində və sinif otaqlarında 8 elektron lövhə quraşdırılıb, humanitar və dəqiq elmlər üzrə elektron dərslik bazası yaradılıb.

Bina ilə tanışlıqdan sonra Hərbi Liseyin müəllimləri ilə görüşən Ali Məclisin sədri deyib: "Heydər Əliyev adına Hərbi Liseydə dərs demək böyük şərəf və bir o qədər də məsuliyyətdir. Çünki siz ölkəmizin gələcək müdafiəçilərini hazırlayırsınız. Yaradılan şərait, o cümlədən liseydə vətənpərvər kursantların təhsil alması pedaqoji heyətin üzərinə mühüm vəzifələr qoyur. Liseyin müəllimləri bundan sonra da kursantların təhsilinə, nizam-intizamına, fiziki hazırlıqlarının artırılmasına diqqət yetirməli, müəllim-kursant münasibətlərində fərdi yanaşma üstün istiqamət kimi götürülməlidir. Bu gün istər ali hərbi məktəblərdə təhsil alan, istərsə də Azərbaycan Silahlı Qüvvələrində xidmətlərini davam etdirən liseyin məzunları öz nizam-intizamları, vətənpərvərlikləri, bilik və bacarıqları ilə seçilirlər".

Ali Məclisin sədri kursantların bilikli və vətənpərvər təhsil alması sahəsindəki səmərəli fəaliyyətlərinə görə Hərbi Liseyin müəllimlərinə təşəkkür edib.

# Xəbərlər:

## hadisələr, faktlar

### Türkiyədə ilk yerli təyyarə istehsal edəcək şirkət yaradılıb



ABŞ-ın Sierra Nevada Corporation (SNC) şirkəti Türkiyənin regional reaktiv təyyarələri istehsal etməsi üçün "TRjet" Aviasiya Texnologiyaları Anonim şirkətini yaradıb.

AZƏRTAC Türkiyə mətbuatına istinadən xəbər verir ki, baş ofisi Ankarada olacaq "TRjet" şirkəti əsasən regional təyyarə layihəsində iştirak etsə də, o həmçinin, kommersiya aviasiya sektorunda da xidmət göstərəcək. "TRjet" Türkiyədə ilk sərnişin təyyarəsinin istehsalında çox mühüm rol oynayacaq, Türkiyənin ilk sərnişin təyyarəsi olacaq TRJ628-in istehsalı Dornier 328 (D328) təyyarəsinin modernləşdirilmiş versiyası olan TRJ328-in bazasında hazırlanacaq.

### Tbilisidə baş verən təbii fəlakət nəticəsində ölənlərin sayı 19-a çatıb



Gürcüstanda yağan leysan yağışları nəticəsində paytaxt Tbilisidə baş vermiş qəzada ölənlərin sayı 19-a çatıb. Gürcüstanın Təhlükəsizlik və Fövqəladə Halların İdarə Olunması üzrə Dövlət Şurasının yaydığı məlumata görə, həlak olanların 17-nin kimliyi məlum olub, digər 2 nəfərin şəxsiyyətinin müəyyənləşdirilməsi işləri davam edir. Hazırda 6 nəfər ölkə vətəndaşı itkin düşmüş hesab olunur. Şəhərin dağıntılara məruz qalmış hissələrində təmir-bərpa işləri davam etdirilir. Hesablamalara görə, şəhər infrastrukturuna 20 milyon dollardan çox ziyan dəyib.

### Asiya 2016-cı ildə dünyanın ən varlı regionu olacaq



Sürətli artım və dayanıqlı bazar Asiyanı 2016-cı ildə dünyanın ən varlı regionuna çevirəcək. AZƏRTAC dünya mətbuatına istinadən xəbər verir ki, "Boston Cunsulting Group"-un "Dünyanın varı" hesabatına əsasən, dünya bazarının həcmi 2014-cü ildə 11,9 faiz artmış, bu il üçün isə 12,3 faiz artım müşahidə edilir. Bu nəticələr dünyanın müxtəlif regionlarda bazarların həcminin azalması və artması hesabına formalaşır. Faktlar göstərir ki, Asiya regionu 2016-cı ildə Şimali Amerikanı ötərək dünya lideri olacaq. Asiya regionunun iqtisadi artım tempi 2019-cu ilədək proqnozlaşdırılır.

### Cənubi Koreya: MERS koronovirusu daha üç nəfərin həyatına son qoydu



Cənubi Koreyada MERS virusundan bir sutka ərzində daha üç nəfər həyatını itirib. Beləliklə, ölkədə bu xəstəlikdən ölənlərin sayı 19 nəfərə çatıb. AZƏRTAC xəbər verir ki, ötən gün, həmçinin koronovirusa dörd yeni yoluxma halı qeydə alınıb və yoluxanların ümumi sayı 154 nəfərə qədər artıb. Bundan başqa, MERS daşıyıcıları ilə təmasda olan 5,5 min insan karantin altında saxlanılır. Ölkədə virusun yayılmasının qarşısını almaq məqsədi ilə 2 mindən çox təhsil və məktəbəqədər təhsil müəssisəsi bağlanılıb, kütləvi tədbirlər ləğv edilib. Bəzi mütəxəssislər MERS xəstəliyini Ebola virusundan da təhlükəli sayırlar. İlkin mərhələdə xüsusi simptomları olmayan ölümcül virus adi soyuqdəymədən seçilmir. İndiyə qədər nə peyvəndi, nə də dərmanı tapılmayan xəstəlik birbaşa təmas vasitəsi ilə deyil, hava-damcı yolu ilə yayılır və tez bir zamanda ağ ciyərlərin sıradan çıxmasına səbəb olur.

### "Taliban" hərəkatının tanınmış komandirlərindən biri məhv edilib



İyunun 15-də səhər saatlarında "Taliban" hərəkatının səhra komandirlərindən biri Mir Əhməd Qul Xaşmi Pakistanın Peşavar şəhərində məhv edilib. Məlumatda qeyd edilir ki, Mir Əhməd Qul Xaşmi "Taliban" hərəkatının nüfuzlu səhra komandirlərindəndir. Uzun illərdir ki, o həm də Əfqanıstanın Pakistanla həmsərhəd Nanqarxar əyalətinin "kölgə" qubernatoru hesab edilirdi. Ötən ilin fevral ayında isə Peşavar şəhərində "Taliban" hərəkatının daha bir nüfuzlu səhra komandiri Əbdül Rakib öldürülmüşdü.

### Mayya qəbiləsi başçılarından birinin sərdabəsindəki yazının şifrəsini açmaq mümkün olub



Meksika tədqiqatçıları Mayya hindularının qəbilə başçısı Pakalın 60 il bundan qabaq aşkarlanan sərdabəsindəki yazının şifrəsini açmağa müvəffəq olublar. Sərdabə 1948-ci ildə arxeoloq Alberto Rus tərəfindən tapılıb.

AZƏRTAC xəbər verir ki, alimlərin iddiasına görə, heroqliflə yazılmış sözlər "doqquz iti nizənin evi" mənasını verir. "Bu cür ifadə daha çox Mayya sivilizasiyasının klassik dövrünə, əsasən də onların mədəniyyətinin çiçəklənməsi dövrünün sonu olan VIII əsr üçün xarakterikdir. 800-cü ildən sonra bu xalqın təmsilçiləri tərəfindən ucaldılan tikililər bir çox halda həmin dövrdə gedən müharibələr nəticəsində dağılmağa başlayıb", - deyə Bernal məsələyə aydınlıq gətirib.

### Çin alimləri Antarktidada nadir asteroid parçası tapıblar



Antarktidada bir qrup Çin alimi tərəfindən asteroid parçası aşkar olunub. Bu barədə "Deyta" informasiya agentliyi məlumat verib. Alimlər ümumilikdə Vesta asteroidinə məxsus 600 birləşmə tapıblar. Bunlardan ən böyüyünün çəkisi cəmi 1300 qram olub. Elm adamlarının sözlərinə görə, aşkar edilən asteroid parçasının ölçüsü böyük olduğuna görə öyrəniləcək. Vesta asteroidini alimlər hələ XIX əsrin əvvəllərində tapıblar. Ölçülərinə görə böyük olan asteroid Venera və Mars arasında yerləşir.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

# Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Sanatoriyası hərbi qulluqçuların ixtiyarında



***Həmsöhbətim Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Sanatoriyasının rəisi, tibb xidməti polkovnik-leytenantı Vidadi Əliyevdir. O, 1993-cü ildə Azərbaycan Dövlət Tibb Universitetini nevropotoloq ixtisası üzrə bitirib. 1994-cü ildən Daxili İşlər Nazirliyinin tibb strukturlarında xidmətə başlayıb və 2007-ci ildə öz arzusu ilə tibb xidməti mayoru hərbi rütbəsində daxili işlər orqanlarından ehtiyata buraxılıb. Vidadi həkim mülki həyata qayıtdıqdan sonra "Uzun Ömür" Sağlamlıq Mərkəzinin baş həkimi vəzifəsinə təyinat alıb. Bioloji Təbabət və Antihomotoksik Terapiya Cəmiyyətinin prezidenti olub. Bu müddət ərzində dünyanın bir çox ölkələrində (ABŞ-da, Almaniyada, Türkiyədə, Rusiya Federasiyasında, Yaponiyada və s.) tibbi kurslar keçib, bu sahədə elmi təcrübəsini daha da genişləndirib. Rus dilli ölkələr üzrə beynəlxalq lektor olan tibb zabitinin, 2007-ci ildə onurğa xəstəlikləri, "Fəqərələrarası disk yırtıqlarının cərrahi müdaxiləsiz müalicəsi" mövzusu üzrə müdafiəsi dünyada birinci yerə layiq görülüb. Bununla əlaqədar Vidadi həkim MDB məkanında nadir həkimlərdəndir ki, Almaniyanın "Hanemann" medalına layiq görülüb. Almaniyanın Naturopatiya Akademiyasının homeopatiya kafedrasının fəxri professorudur.***



- Mərkəzi Hərbi Sanatoriya 2015-ci ilin fevralından fəaliyyətə başlayıb. Əvvəllər Görədil Hərbi İstirahət Evi kimi tanınan bu məkanda hərbi qulluqçulara, onların ailə üzvlərinə, həmçinin ehtiyatda və istefada olan hərbçilərə, mülki şəxslər də daxil olmaqla yüksək tibbi xidmət göstərilir, - deyə Vidadi həkim sözünə davam edir.

- Hər kəs bu sanatoriyada dincəlməklə bərabər bir çox xəstəliklərdən müalicə oluna bilər. Dövlətimizin çox gözəl qanunları var. Hər bir hərbi qulluqçu Vətən qarşısında xidməti borcunu vicdanla, ləyaqətlə yerinə yetirməlidir. Ölkə rəhbəri cənab İlham Əliyev daim orduya diqqət göstərir, ilbəil artırılan hərbi xərclər də bir daha bunu təsdiq edir. Dövlət başçısının diqqət və qayğısının nəticəsi olaraq hərbi qulluqçuların məişət şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm işlər görülmüşdür. İlk dəfə Ali Baş Komandan cənab İlham Əliyev 22 iyun 2006-cı il tarixdə bu istirahət evinin açılışında iştirak edib. Bu ölkə başçısının hərbi qulluqçulara göstərdiyi diqqət və qayğının bir nümunəsidir.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun qarşıya qoyduğu ən ümdə vəzifələrdən biri də hərbi qulluqçuların məişət şəraitinin yaxşılaşdırılmasıdır. Belə ki, cənab nazir düşmənlə təmas xəttində xidmət edən döyüşçülərin təminatında bir çox dəyişikliklər edərək onların nümunəvi xidməti üçün əlverişli şərait yaradıb. Qısa müddətdə cəbhə bölgəsində müasir dövrün tələblərinə cavab verən hərbi şəhərciklərin açılışı olub və tikilməkdə olan müasir hərbi hissələrin də bu yaxınlarda əsgər və zabitlərin ixtiyarına verilməsi gözlənilir. Bir sözlə, bütün bunlar Müdafiə Nazirliyi rəhbərliyinin ordumuzun gücləndirilməsi istiqamətində gördüyü məqsədyönlü işlərdir.





Tibb xidməti polkovnik-leytenantı Vidadi Əliyev dedi ki, ötən ilin dekabrında Müdafiə naziri general-polkovnik Zakir Həsənov və Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov sanatoriyada olublar. Buradakı şəraitlə yaxından tanış olduqdan sonra hərbi qulluqçuların və onların ailə üzvlərinin istirahətinin daha yaxşı təşkili üçün yeni təkliflərin hazırlanmasını tələb ediblər.

Artıq bu il fevral ayından istirahət evi sanatoriya kimi fəaliyyət göstərməyə başlayıb. Binalarda bir sıra təmir-bərpa işləri həyata keçirilib. Sanatoriyaya qaz xətti çəkilib. Müasir istilik sistemi quraşdırılıb. Binanın dam örtüyü dəyişdirilib. Əvvəllər qış aylarında istirahətə gələnlər hovuzdan istifadə edə bilmirdilər. İndi isə burada yeni istilik sistemləri quraşdırılıb və istirahət edənlərin ixtiyarına verilib.

Mərkəzi Hərbi Sanatoriyada yeni yaradılan müalicə bölməsində kompüter diaqnostika aparatı var. Aparat qurdların, mikrobların tapılmasına kömək edir, orqanizmdə gedən prosesləri tez bir zamanda aşkara çıxarır. Multirezonansterapiya aparatı vasitəsilə həmin mikrobları və patalogiyaları müalicə edir. Bundan əlavə, Mərkəzi Hərbi Sanatoriyada hidrokolonterapiya, nevralterapiya, refleksoterapiya, fizioterapiya, musiqiterapiya, ozonoterapiya, teypləşdirmə, traksiya, massaj və s. müalicə bölmələri fəaliyyət göstərir.

Tibb elmi bildiyimiz kimi daim axtarışdadı. Dünyada geniş yayılmış xəstəliklər sırasında onurğa xəstəliyi ön yerlərdən birini tutur. Bu xəstəliklərdən xilas olmaq üçün daim davamlı axtarış tədbirləri həyata keçirilir. Son illərin nailiyyəti kimi göstərmək olar ki, ölkədə ilk dəfə olaraq bizim sanatoriyada tətbiq olunan Altay dağ marallarının buynuzlarının sümükləşməmiş vaxtında götürülən qanından hazırlanmış vannalar bizdə mövcuddur. Maral qanından müalicəvi (Pant) vannalar dayaq hərəkət sistemi xəstəlikləri (osteoxondroz, fəqərəarası disk yırtıqları, protruziya və s.), dəri xəstəlikləri (dermatit, psoriaz, neyrodermit və s.), mədə-bağırsaq sistemi xəstəliklərini (xroniki qastrit, mədə və onikibarmaq bağırsağın xora xəstəliyi və s.) effektiv müalicə edir. Maral qanının tərkibində vitaminlər, minerallar, cinsiyyət hormonları, prostoqlandinlər, leykotrienlər vardır ki, bunlar da antidepressant təsir göstərir.

Sanatoriyaya ixtisaslı, təcrübəli həkimlər cəlb olunublar. Həkimlərdən Şəlalə Əzimova, Firəngiz Məmmədova, Orxan Eyyublu, Ruhel Qasımov və başqalarının xidmətləri sayəsində burada istirahət edən xəstələr şəfa tapırlar. Bundan əlavə burada pediator, dietoloq, kosmetoloq həkimlərin də xidmətlərindən istifadə oluna bilər.

Tibbi turizim bölməsinin təlimatçısı Sitarə Quliyeva deyir ki, sanatoriyanın öz saytı fəaliyyət göstərir. "www.Herbisanatoriya.az" saytına daxil olmaqla daha ətraflı məlumat əldə etmək və "Online" vasitəsi ilə sifariş də vermək mümkündür.

Abşeron yarımadasında Xəzərin yaxınlığında yerləşən Mərkəzi Hərbi Sanatoriyanın yataq korpusları müasir tələblərə cavab verən, yenicə təmirdən çıxmış otaqlardan ibarətdir. İstirahət edənlər üçün geniş futbol, basketbol meydançası, trenajor zalı, tennis kortu, bilyard zalı, sauna, uşaqlar və böyüklər üçün hovuz, uşaq bağçası fəaliyyət göstərir.

Sanatoriyada istirahət edən, çoxdan tanıdığım polkovnik-leytenant Novruz İsmiyev deyir ki, o, ilk dəfədir buradadır. Mərkəzi Klinik Hospitalda əməliyyat olunandan sonra istirahət etmək üçün ona buranı məsləhət görüblər.

- Doğrudan da, sanatoriyanın çox yaxşı şəraiti var. İstirahət edənlərə yüksək səviyyədə xidmət göstərilir. Vaxtım tamam olmaq üzrədir, qərara gəldim ki, burada daha bir həftə də qalım, - deyə Qarabağ müharibəsi veteranı sanatoriyadan razılığını belə ifadə etdi.

Burada hərbi qulluqçular, onların ailə üzvləri, həmçinin arzusunda olan hər kəs 14-21 gün ərzində dincəlib müalicə ala bilər.

Yaradılan yeniliklərlə tanışlıqdan sonra sanatoriyadan xoş ovqatla ayrılıram.







**Mayor
Bəxtiyar ƏLİYEV,
"Azərbaycan Ordusu"**

# Unutmayaq!

*1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:*

***Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.***
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.***
***Qazax rayonunun Yuxarı Əskipara, Aşağı Əskipara, Sofulu, Bağanıs-Ayrım, Qızıl Hacılı, Barxudarlı və Xeyrimli kəndləri (1990-1992) - 75 kv.km.***
***Laçın (18 may 1992-ci il) - 1835 kv.km.***
***Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.***
***Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.***
***Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.***
***Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.***
***Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.***
***Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.***

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

## Azərbaycan ilə Vyetnam arasında hərbi və hərbi-texniki sahələrdə əməkdaşlıq məsələləri müzakirə edilib

Azərbaycan ilə Vyetnam arasında hərbi və hərbi-texniki sahələrdə əməkdaşlığın böyük potensialı var. Bu potensialdan istifadə edilməsi, hərbi təlim-təhsil, hərbi-texniki və hərbi sənaye sahələrində qarşılıqlı əməkdaşlığın qurulması faydalı olar.

Bu fikirlər Azərbaycanın Vyetnamdakı səfiri Anar İmanovun Vyetnam milli müdafiə nazirinin müavini Çıonq Kuanq Xanh ilə görüşündə səslənib.

Nazir müavini Çıonq Kuanq Xanh ənənəvi dostluq əlaqələrinin ölkələrimiz arasında əməkdaşlığın inkişaf etdirilməsi üçün əlverişli imkanlar yaratdığını vurğulayıb. O, ölkəsinin çətin günlərində Azərbaycanın Vyetnama dəstək olduğuna görə təşəkkürünü bildirib, vaxtilə Bakıda təhsil almış, hazırda isə Vyetnam Milli Müdafiə Nazirliyində yüksək vəzifələrdə çalışan çoxlu vyetnamlının olduğunu diqqətə çatdırıb.

Səfir A.İmanov ölkələrimiz arasında əlaqələrin fəallaşmaqda olduğunu vurğulayaraq, bunun əsas səbəbi kimi Azərbaycan Prezidenti İlham Əliyevin ötən il Vyetnama və Vyetnam Prezidenti Çıonq Tan Şanqın keçən ay Azərbaycana səfərlərini qeyd edib. Dövlət başçıları ölkələrimiz arasında hərbi sahədə əməkdaşlığın inkişaf etdirilməsini prioritet istiqamət kimi müəyyən ediblər.

A.İmanov Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbinin məzunlarının Vyetnamda milli müdafiə nazirinin müavini, Hərbi Dəniz Donanmasının vitse-admiralı, Baş Qərargah rəisi kimi vəzifələrdə çalışmalarının Azərbaycanda digər sahələrdə olduğu kimi, hərbi sahədə də təhsilin yüksək səviyyədə təşkilinin bariz nümunəsi olduğunu xüsusi vurğulayıb.

Səfir Azərbaycanın güclənməkdə olan ordusu, bu istiqamətdə görülən işlər, ölkəmizin hərbi sənaye kompleksi ilə bağlı məlumat verib. O, əvvəllər xarici ölkələrdən idxal edilən bir çox silah və hərbi sursatın hazırda ölkəmizdə Müdafiə Sənayesi Nazirliyi nəzdində fəaliyyət göstərən müəssisələrdə ən müasir texnologiyalar əsasında istehsal edildiyini bildirib.

**AZƏRTAC**

*Yeni kitablar*

## Sabahımız daha parlaq olsun

Elman Rüstəmov ixtisasca həkimdir. İyirmi ildən çox Silahlı Qüvvələrimizin sıralarında xidmət edib. Onun imzası oxuculara yaxşı tanışdır. Bu günə qədər Elmanın qələmindən "Xoşbəxt günlərimin acı göz yaşları", "Novruzda açılan atəş", "Başkəsənlər", "Anama məktub" və "Tanrı ürəklərdədir" kitabları çıxıb. 2014-cü ildə "Qafqaz-Media" İctimai Birliyinin təsis etdiyi "Nurlu qələm" mükafatına layiq görülüb. Bu günlərdə isə qələm dostumuzun "Novella və hekayələr" kitabı çapdan çıxıb.

Kitaba ön söz yazan şair, yazıçı-filosof Əlisa Nicat da Elmanın yaradıcılığını təhlil edərkən bu məqamı önə çəkir. O yazır: "Elman siyasi təfəkkür adamı deyil, belə olmağa da can atmağa heç gərək yox. O, ətrafına baxan və həyatın real hadisələrini özünəməxsus bir formada təsvir edən istedadlı bir yazıçıdır. Onun əsərləri müasir zamanın güzgüsüdür. Sənətkar üçün, bundan böyük xöşbəxtlik yoxdur".

Müəllif "Milli ruhlu filmlərimizin çəkilişinə start verək" adlı publisistik yazısında bu gün hamımızı narahat edən problemlərə toxunur. Əvvəlki illərin gənclərə milli ruh aşılayan filmlərini misal gətirir. Bir ziyalı, yazıçı kimi narahat hisslər keçirir. Məqalədə yazılan sözlər, cümlələr, verilən və hələ də cavabsız qalan suallar hamımızı düşündürür.

"FM-108-də" "Erməni xəstəliyi-donuz qripi", "Lev Tolstoy erməniləri necə görürdü", "Ermənilər haqqında" və başqa publisistik yazılarında neçə illərdən bəri ağrı-acısını yaşadığımız Qarabağ müharibəsindən bəhs olunur.

Elə bilirəm ki, "Ermənilər haqqında" bölüm oxucularda böyük maraq yaradacaq. Burada müəllif "Gəldim, gördüm, mənimsədim" kitabından sitatlar verib. Bu sitatlardan bir neçəsini oxucuların diqqətinə çatdırmaq istəyirəm. Gətirdiyimiz bu nümunələrdə müəllif erməniləri elə öz dilləri ilə ifşa edir.




Erməni şairi Yeqişe Zarens:

"Bizdə riyakarlıq ana bətnində olarkən yaranır".

Ovanes Tumanyan:

"…Həqiqi qurtuluş daxildən başlanmalıdır, çünki biz daxilən xəstəyik".

Xaçatur Abovyan:

"Bizim dilin ən azı əlli faizi türk sözlərindən ibarətdir".

Qazaros Ağayan:

"Ermənilər ünsiyyətdə və danışıq dilində həmişə Azərbaycan atalar sözləri və məsəllərinə müraciət edirdilər".

Manuk Abeqyan:

"Bədbəxtlikdən bizim dil çoxmənalı sözlər, oxşar məna daşıyan ifadələr baxımından kasıbdır və buna görə də biz yaxşı bildiyimiz türk (Azərbaycan) dilinə müraciət edirik".

Kitabda verilmiş "Kreml qülləsi", "Ağ vərəq", "Ziyarət" və başqa hekayələr oxunaqlıdır. Ümumiyyətlə, Elmanın novella və hekayələrində təsvir olunan hadisələr o qədər inandırıcı və realdır ki, birnəfəsə oxunur. Müəllif əsərlərini ustalıqla qələmə alır.

Elman Rüstəmova yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**Mayor
Vahid MƏHƏRRƏMOV,
"Azərbaycan Ordusu"**

# Məqsəd vətənpərvərlik duyğularının möhkəmləndirilməsidir

***Vətəni sevən, onunla haqlı qürur duyan insanlar dövlətin təhlükəsizliyinin təminatçısı olan ordunu həmişə xalqın övladı hesab ediblər. Ona görə ki, orduda xalqımızın oğul və qızları xidmət edir, doğma Azərbaycanımızın müdafiəsinə öz töhfələrini verirlər.***

Bu gün bir sıra qeyri-hökumət təşkilatları Silahlı Qüvvələrdə ictimai nəzarəti həyata keçirməklə yanaşı, gənclər və hərbi qulluqçular arasında vətənpərvərlik duyğularının aşılanması üçün müxtəlif tədbirlər keçirir, əllərindən gələni əsirgəmirlər. "Əsgər Ailələrinə Dəstək" İctimai Birliyi də bu qəbildən olan qeyri-hökumət təşkilatlarındandır.

Bu günlərdə "Əsgər Ailələrinə Dəstək" İctimai Birliyinin üzvləri Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə "Ordumuza güvənirik - Vətənpərvərliyin təbliği" mövzusunda həyata keçirilən layihə çərçivəsində növbəti dəfə cəbhə bölgəsinə səfər edib, "N" hərbi hissəsinin şəxsi heyətilə görüş keçiriblər.

İctimai Birliyin rəhbəri Mətanət Əsgərqızı vətənpərvərlik mövzusunda gerçəkləşdirdikləri layihənin məqsədi və məramı barədə məlumat verərək, bu yöndə aparılan işlərdən söz açıb. Belə layihələrin vətənpərvərliyin təbliğində, ordu ilə xalq arasında bağlılığın möhkəmləndirilməsində mühüm rol oynadığını vurğulayıb.




- Hər bir Azərbaycan vətəndaşı ordumuza və əsgərinə güvənir, xalqımız hər an Silahlı Qüvvələrimizdə xidmət edən övladlarının yanındadır, - deyə ictimai birliyin sədri vurğulayıb. - Məhz əsgərlərimizin düşmənlə təmas xəttində torpaqlarımızın keşiyini ayıq-sayıq çəkdiyinə, fədakarlıqla Vətənimizi müdafiə etdiyinə görə vətəndaşlar evlərində, işlərində rahatdırlar. Bu günlər keçirilən "Bakı 2015" idman tədbirinin belə yüksək səviyyədə keçirilməsi də buna misal ola bilər. Əsgərlərimiz də bu möhtəşəm idman oyununda qazandığımız qələbələrdə qaldırılan bayrağın bir gün işğal altında olan torpaqlarımızda dalğalanacağına əmindirlər.

Qonaqlar hərbi hissənin zabit və əsgərləri ilə görüşdə şəxsi heyətin döyüş hazırlığı sahəsində əldə etdikləri uğurlarla, gecə və gündüz döyüş növbəsinin təşkili və aparılması ilə tanış olublar. Hərbi qulluqçularımız da öz növbəsində xüsusi vurğulayıblar ki, onlara veriləcək döyüş tapşırıqlarını yüksək səviyyədə yerinə yetirməyə hər an hazırdırlar.

**"Azərbaycan Ordusu"**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur.
"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 546
Nüsxə 4600